A.N.SAMOYLOVİÇ VƏ I TÜRKOLOJİ QURULTAY

Gülnarə Fəxrəddin qızı Əliyeva
Bakı Slavyan Universiteti
Türkologiya kafedrasının müdiri
Filologiya üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0001-8777-1411
gulnara.fakhraddin@gmail.com
+994 50 626 46 09

Xülasə

1926-cı ilin 26 fevral - 6 martında Bakıda I Ümumittifaq Türkoloji Qurultayın keçirilməsi türk dünyasının inkişafında baş vermiş mühüm mədəniy hadisə kimi türk xalqlarının tarixində silinməz iz buraxmışdır. Qurultay türk xalqlarının dili, əlifbası, tarixi, etnoqrafiyası, mədəniyyəti və ədəbiyyatı istiqamətində taleyüklü məsələlərin həllində mühüm əhəmiyyət kəsb etmiş və türk dünyası üçün bir sıra əhəmiyyətli qərarlar qəbul edilmişdir. I Türkoloji Qurultayın 131 iştirakçısından biri də dünya şöhrətli türkoloq alim, türk xalqlarının və dillərinin görkəmli tədqiqatçısı akademik Aleksandr Nikolayeviç Samoyloviç (1880-1938) olmuşdur. O, I Türkoloji Qurultayın 28 fevral 1926-cı il tarixli V iclasında Cəlaləddin Qorxmazovun sərdrliyi ilə "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda məruzə etmişdir. Qurultayın aktual problemlərindən biri də müasir türk dillərinin öyrənilməsi məsələsi idi. Görkəmli tədqiqatçının yaradıcılığında türkmən və özbək dili, ədəbiyyatı, folkloru xüsusi yer tutsa da, qurultaydakı məruzəsində şimal-şərqdə yerləşən yakut xalqının dilindən tutmuş, Yenisey çayı hövzəsində, Sibirdə, Mərkəzi Asiyada, Şimali Qafqazda yaşayan bütün türk xalqları, onların dilləri, dillərin mövcud vəziyyətləri, tədqiqat istiqamətləri nəzəri cəhətdən şərh edilmiş, bu istiqamətdə tədqiqat aparan alimlərin fəaliyyəti də unudulmamışdır. Samoyloviçin vaxtilə haqqında məruzə etdiyi dillərin bəzisi bu gün ölü dil və ya yox olma təhlükəsi daşıyan türk dilləri sırasındadır (soyot dili, karaqas dili və s.). Nəzərə çatdırmaq istədiyimiz məqam odur ki, tədqiqatçı məruzəsində bütün türk dillərini əhatə edə bilmiş, türk xalqlarının yayılma coğrafiyası, onların dilləri, dialektləri, öyrənilmə vəziyyəti haqqında bəhs etmişdir. Azərbaycan türklərinin yerləşmə arealı, Azərbaycan dili və onun dialekt xüsusiyyətlərinin tədqiqi məsələləri də Samoyloviçin məruzəsində öz əksini tapmışdır. Bütövlükdə tədqiqatçının araşdırmaları türkologiyanın inkişafına mühüm təsir göstərmişdir.

Açar sözlər: A.N.Samoyloviç, I Türkoloji Qurultay, türk dilləri, türk xalqları, təsnif.

Abstract

The First All-Union Turkological Congress, held in Baku from February 26 to March 6, 1926, left an indelible mark on the history of Turkic peoples as a significant cultural event in the development of the Turkic world. The Congress played a crucial role in addressing vital issues related to the language, alphabet, history, ethnography, culture, and literature of Turkic peoples, and a number of significant decisions were adopted for the Turkic world. One of the 131 participants of the First Turkological Congress was the world-renowned Turkologist, an outstanding researcher of Turkic peoples and languages, Academician Aleksandr Nikolayevich Samoylovich (1880–1938). At the Fifth session of the First Turkological Congress, held on February 28, 1926, under the chairmanship of Jalaladdin Gorkhmazov, he delivered a report entitled "The Current State of the Study of Turkic Languages and the Tasks Ahead". This topic was one of the key and most pressing issues addressed in the reports delivered by the participants of the Congress. Although Turkmen and Uzbek language, literature, and folklore occupied a special place in the scholar's work, in his report at the Congress he theoretically addressed all

Turkic peoples and their languages—from the Yakut people of the northeastern regions to those living in the Yenisei River basin, Siberia, Central Asia, and the North Caucasus-examining the current state of these languages, research directions, and also acknowledging the contributions of scholars working in this field. Some of the languages that Samoylovich discussed in his report are today considered extinct or endangered Turkic languages (such as Soyot, Karagas, etc.). What we wish to emphasize is that in his report the scholar was able to encompass all Turkic languages, discussing the geographical distribution of Turkic peoples, their languages and dialects, and the state of their study. The areas of settlement of Azerbaijani Turks, as well as issues related to the study of the Azerbaijani language and its dialectal features, were also reflected in Samoylovich's report. Overall, the scholar's research had a significant impact on the development of Turkology.
Keywords: A.N.Samoylovich, First Turkological Congress, Turkic languages, Turkic peoples, classification.

Giriş

XX əsrin əvvəllərində türk dünyasının mühüm elm və mədəniyyət mərkəzinə çevrilmiş şəhərlərindən biri Bakı şəhəri idi. Məhz Bakıda keçirilən elmi toplantılar türk dillərinin, ədəbiyyatının, etnoqrafiyasının və tarixinin sistemli şəkildə öyrənilməsinin əsasını qoydu. Bakıda mühüm türkoloji görüşlər keçirilməklə türk xalqlarının qarşısında duran mühüm məsələlər müzakirə olunmuş və dəyişən dünyada türk xalqlarının və dillərinin inkişafına yeni yanaşmalar hazırlanmışdı. Bu dövrdə türk xalqlarının inkişafı üçün uzunmüddətli nəticələrə hesablanan dil təsnifatı, yazı islahatı, terminologiya, maarifçilik məsələləri müzakirə olunmuşdur. "Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdir" (5, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı).1926-cı ilin 26 fevral - 6 martında Bakıda I Ümumittifaq Türkoloji Qurultayının keçirilməsi türk dünyasının inkişafında baş vermiş mühüm mədəni hadisə kimi türk xalqlarının tarixində silinməz iz buraxmışdır. Qurultay türk xalqlarının dili, əlifbası, tarixi, etnoqrafiyası, mədəniyyəti və ədəbiyyatı istiqamətində taleyüklü məsələlərin həllində əhəmiyyət kəsb etmiş və türk dünyası üçün bir sıra mühüm qərarlar qəbul edilmişdir. I Türkoloji Qurultayın 131 iştirakçısından biri də dünya şöhrətli türkoloq alim, türk xalqlarının və dillərinin görkəmli tədqiqatçısı akademik Aleksandr Nikolayeviç Samoyloviç (1880-1938) olmuşdur. Eyni zamanda qurultayın Rəyasət Heyətinə seçilən 22 nəfər nümayəndədən biri də məhz akademik A.N.Samoyloviç (Qurultayın keçirildiyi tarixdə professor) idi.

Çoxşaxəli elmi yaradıcılığa malik olan rus şərqşünası Aleksandr Nikolayeviç Samoyloviç 29 dekabr 1880-ci ildə Rusiyanın Nijni Novqorod şəhərində anadan olmuşdur. Rus alimi və türkoloqu kimi tanınsa da, o milliyyətcə ukraynalı idi. Atası Nikolay Yakovleviç Samoyloviç Nijni Novqorodda Klassik gimnaziyanın direktoru idi. 1899-cu ildə Nijni Novqorod Dvoryan İnstitutunu (Klassik gimnaziya) gümüş medalla bitirən Aleksandr Nikolayeviç Samoyloviç atasının məsləhəti ilə Sankt-Peterburq Universitetinin Şərq dilləri fakültəsinə daxil olmuş və Ərəb-fars-tatar-türk ixtisası üzrə təhsil almışdır. A.N.Samoyloviç Peterburq Universitetində təhsil arlarkən türkoloq-linqvist prof. P.M.Melioranski, prof. V. V. Bartold, türk dili və ədəbiyyatı üzrə mütəxəssis prof. V. D. Smirnov, iranşünas prof. K.G.Zaleman, ərəbşünas prof. V.R.Roven, prof. A.E.Şmidt, arxeoloq prof. N.İ.Veselovski kimi dövrün böyük alimlərindən dərs almış və onlar Samoyloviçin yaxşı bir alim və müətəxəssis kimi yetişməsində müstəsna rol oynamışlar. Sonralar Samoyloviç həmin dövrün ən böyük türkoloqu, qədim türk yazılı abidələrinin oxunmasında bilavasitə iştirak edən alman əsilli alim, akademik V.V. Radlovdan da dərs almışdır.

A.N.Samoyloviç 1902-ci ildə P.M. Melioranskinin məsləhəti və göstərişi ilə türkmən dilini öyrənmək və daha sonra diplom işini yazmaq üçün Türkmənistana gedir və türkmən dilinin Tekin dialektini araşdıraraq nağıllar, tapmacalar, atalar sözləri və s. kimi folklor nümunələri əsasında tədqiqat aparır. "Əsərin təqdim olunduğu professor-müəllim heyəti "mövzunun yeniliyini və mürəkkəbliyini, o cümlədən müəllifin şübhəsiz ki, müstəqil elmi işə olan qabiliyyətini və sevgisini

nümayiş etdirdiyini" qeyd edərək, onu qızıl medala layiq görür" (Aşnin, 1978, s. 9). Bu araşdırma onun müstəqil elmi fəaliyyətinin başlanğıcı kimi də qiymətləndirilə bilər.

Samoyloviç 1903-cü ildə universiteti bitirdikdən sonra həyatını məzun olduğu universitetə bağlamış və burada çalışmağa başlamışdır. Aşnin yazırdı: "A.N.Samoyloviç tutduğu vəzifədən təkcə adi magistratura imtahanlarını vermək üçün deyil, həm də P.M.Melioranski və V.V. Radlovun rəhbərliyi altında türkologiyanın ümumi məsələləri və qədim və orta dövr türk dilləri sahəsində biliklərini təkmilləşdirmək üçün istifadə edirdi" (Aşnin, 1978, s. 9). O, "Əbdü-s-Səttar Qazi. Tekinlərin döyüşlərindən bəhs edən hekayələr kitabı. XIX əsr türkmən tarixi poeması" adlı magistr mövzusunu müdafiə edir və 1907-ci ildən etibarən universitetdə türkologiyanın müxtəlif bölmələri üzrə mühazirələr oxumağa başlayır.

Məşhur türkoloq A.N.Kononov müəllimi A.N.Samoyloviç haqqında yazırdı: "A.N. Samoyloviç çoxşaxəli türkoloq idi. Onun elmi maraqları olduqca geniş idi, dilçilik, ədəbiyyatşünaslıq, etnoqrafiya və tarixi əhatə edirdi. P.M.Melioranskinin rəhbərliyi altında aldığı dərin linqvistik təlim onun tədqiqatlarında mühüm rol oynamışdır" (Kononov, 1973, s. 38).

1906-cı ildə müəllimi professor P.M.Melioranski vəfat etdiyi üçün universitetdə türk dili və ədəbiyyatı fənnini, eləcə də müəlliminin tədris etdiyi digər bütün dərsləri A.N.Samoyloviç öz üzərinə götürür. Növbəti il o, tatar ədəbiyyatı kafedrasına dosent vəzifəsinə təyin olunur. 1908-ci ildə Rusiya Arxeologiya Cəmiyyətinin, sonra isə Rus Coğrafiya Cəmiyyətinin üzvü seçilir. 1910-cu ildə Sankt-Peterburqda qurulan Şərq Dilləri Akademiyasına türk dili müəllimi təyin olunur.

1913-cü ildə o, əsasən türk dillərinin qədim dövrünü əks etdirən əlyazmaları öyrənmək məqsədilə Budapeşt, Vyana, Paris və Berlində elmi səfərlərdə olmuşdur. Qeyd edək ki, həmin səfərlər zamanı Paris Milli Kitabxanasında saxlanılan "Xosrov və Şirin" əsərinin əlyazması, eləcə də sonradan Sankt-Peterburqa göndərilmiş "İmperator Baburun şeirlər məcmuəsi" adlı əlyazmanın ilkin tədqiqi Samoyloviç tərəfindən aparılmışdır. O, bu əsərlərdən sağlığında yalnız Baburnaməni nəşr etdirə bilmişdi. 1916 və 1925-ci illərdə Kazanda olan alim burada qədim türk yazılı abidələrini və Qızıl Orda tarixi mənbələrini öyrənmiş, tatarlar haqqında əlyazmalar və etnoqrafik materiallar toplamışdır.

1917-ci ildə professor vəzifəsinə yüksəlmişdir. Böyük Oktyabr Sosialist İnqilabından sonra Rusiyada köhnə şərqşünaslıq institutlarının yeni sistemin tələblərinə uyğun yenidən qurulmasında fəallıq göstərmişdir. O, RSFSR Xalq Xarici İşlər Komissarlığının Şərq şöbəsinin məsləhətçisi vəzifəsində çalışaraq Orta Asiyanın sovetləşdirilməsində fəal iştirak etmişdir.

A.N.Samoyloviçi qurultaydan əvvəl ölkəmizlə bağlayan mühüm məqamlardan biri də Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Müvəqqəti Şurasının ilk sədri seçilməsi və cəmiyyətin Tarix-etnoqrafiya şöbəsinə rəhbərlik etməsi idi. Cəmiyyətin 14 dekabr 1923-cü il tarixli iclasında fəxri sədr olan A.N.Samoyloviç (digər həmsədr S.Ağamalıoğlu idi) illik hesabat ilə çıxış etmiş və hesabatında Azərbaycan türklərinə məxsus şifahi xalq ədəbiyyatı nümunələrinin müvafiq komissiya tərəfindən toplanması və çapa hazırlanması ilə bağlı məlumat vermiş, cəmiyyətin regionlarda şöbələrinin açılmasının vacibliyini göstərmişdir. Həmin ilin sonuna qədər bu şöbələr fəaliyyətə başlamışdır. Maraqlıdır ki, cəmiyyətlə bağlı aparılan tədqiqatlarda daha sonrakı sənədlərdə A.N.Samoyloviçin adına rastlanmır. Qeyd edək ki, ATTC öz fəaliyyətini 1929-cu ilə qədər davam etdirmişdir.

A. N. Samoyloviç 1924-cü ildə SSRİ Elmlər Akademiyasının müxbir üzvü, 1929-cu il yanvarın 12-də SSRİ Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş və 1929-1933-cü illərdə SSRİ Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsinin akademik-katibi olmuşdur. Oldenburqun ölümündən sonra SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru (1934-1937) olmuş, burada ədəbiyyat sektoruna rəhbərlik etmişdir.

Ömrünün son iyirmi ilində inzibati və elmi-təşkilati işlərə xüsusilə çox vaxt və enerji sərf edən A.N. Samoyloviç çoxşaxəli tədqiqatlarını heç vaxt yarımçıq qoymamışdır. Bunu onun arxivindəki, Leninqraddakı M.E.Saltıkov-Şedrin adına Dövlət Kütləvi Kitabxanasının Əlyazmalar şöbəsində (Fond № 671) və SSRİ Elmlər Akademiyası Arxivinin Leninqrad filialında (Fond № 782 və başqaları) saxlanılan əsərlərin siyahısı aydın şəkildə nümayiş etdirir (Kononov, 1973, s. 48).

Repressiyaya məruz qalan türkoloqlar arasında təəssüf ki, Aleksandr Nikolayeviç Samoyloviçin də adı var. I Türkoloji Qurultay nümayəndələrinin türkoloji məsələlərə münasibətdə açıq fikirli olmaları təəssüf ki, onların sonradan "pantürkist" kimi ittiham olunmaları ilə nəticələndi. Bu alimlər təbii ki, birbaşa Stalinin tapşırığı ilə həbs olunurdu. Bununla bağlı İ.V.Stalinin sözlərini nəzərinizə çatdırırıq: "...Məlumdur ki, bütün burjua kəşfiyyatları sosialist proletariatının nümayəndələrinə qarşı fiziki təzyiqin ən iyrənc üsullarından istifadə edirlər. Sual olunur, nəyə görə sosialist kəşfiyyatı burjuaziyanın agentlərinə, fəhlə və kəndli sinfinin mənfur düşmənlərinə münasibətdə daha humanist olmalıdır? ÜK(b)P MK belə hesab edir ki, hələ tam tərksilah edilməmiş xalq düşmənlərinə qarşı fiziki təzyiq üsulu tamamilə doğru və məqsədəuyğun metod kimi tətbiq edilə bilər" (Qasımov, 2019, s.185). Başqa sözlə, Stalin və hakimiyyəti üçün nəinki A.N.Samoyloviç, onunla yanaşı, qurultayın digər əksər üzvlərinin I Türkoloji Qurultayda iştirakı repressiya olunmaları üçün kifayət qədər əsas səbəb hesab olunurdu.

F.D.Aşnin və V.M.Alpatovun "Akademik A.N.Samoyloviçin vəfatı haqqında arxiv sənədləri" adlı məqaləsində oxuyuruq: "Onun zadəgan və Ukrayna hetmanı İ.S. Samoyloviçin nəslindən olduğu üçün güllələndiyi barədə versiya mövcuddur; lakin akademiklər arasında zadəganlar az deyildi, "keçmişə" qarşı əsas təqiblər isə 1937-ci ilə qədər baş vermişdi; eyni zamanda "Ukrayna millətçiləri"nə qarşı təqiblər də həmin dövrə təsadüf edirdi və A.N. Samoyloviç, sanki, onlardan uzaq idi. İstintaq işində zadəganlıq yalnız ötəri şəkildə xatırladılır, hetman və Ukrayna ilə bağlı əlaqələrə isə ümumiyyətlə toxunulmur. Daha inandırıcı olan "türk izi"dir: A.N. Samoyloviç türk alimləri ilə sıx əlaqələrə malik idi və bir neçə dəfə Türkiyəyə səfər etmişdi. Lakin istintaqın bu məsələyə son dərəcə az diqqət yetirməsi diqqəti cəlb edir: hətta türkoloqların istintaq işləri üçün ənənəvi sayılan "pantürkizm" belə gözlənilmədən Türkiyə ilə deyil, Yaponiya ilə əlaqələndirilir. Unutmaq olmaz ki, Mustafa Kamal Atatürkün ölümünə qədər (1938-ci ilin noyabrı) sovet–türk münasibətləri kifayət qədər yaxşı idi" (Aşnin, Alpatov, 1996, s.154).

A.N.Samoyloviç 1937-ci il oktyabrın 2-də Kislovodskda həyat yoldaşı ilə sanatoriyada itirahət edərkən SSRİ XDİK şəhər şöbəsi tərəfindən həbs edilmiş və XDİK-in Moskvadakı (Lubyanka) daxili həbsxanasına köçürülmüşdür. Bütün şəxsi əmlakı müsadirə olunmaqla icra olunan cəza tədbiri həmin gün həyata keçirilmişdir. Həmin dövrün siyasi vəziyyəti ilə əlaqədar A.N. Samoyloviç "yapon casusu" damğası ilə həbs edilərək 13 fevral 1938-ci ildə 15 dəqiqə davam edən məhkəmənin nəticəsinə əsasən edam olunmuş, Kommunarka poliqonunda dəfn edilmişdir. Samoyloviçin ölüm hökmündə deyilir: "Samoyloviç pantürkist olan Radlov və başqalarının təsiri altında türkşünaslığa dair əsəri ilə pantürkçü ideyalar əldə etmişdir". Lakin qeyd etmək lazımdır ki, alimin ailəsi bu güllələnmədən xəbərsiz olmuşdur. Çünki A.N. Samoyloviçin oğlu Platon Samoyloviç tərəfindən illərlə Stalinə atasının sağ olub-olmadığını öyrənmək üçün məktublar ünvanlanmışdır. Stalinin ölümündən üç il sonra, 25 avqust 1956-cı ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə Samoyloviçin şərəf və ləyaqəti bərpa edilmiş və işində cinayət tərkibi olmadığına görə bir çox repressiya qurbanı kimi ona da bəraət verilmişdir.

A.N.Samoyloviçin I Türkoloji Qurultaydakı çıxışı və düşüncələri

A.S.Samoyloviç I Ümumittifaq Türkoloji Qurultayının aparıcı iştirakçılarından biri kimi qurultayın təşkilində də yaxından iştirak etmiş və bir sıra təkiflər irəli sürmüşdür. Onun hələ qurultaydan 3 il əvvəl 1923-cü ildə "Türkoloji qurultay lazımdır: Birinci Türkoloji qurultay ərəfəsində ədəbiyyat dilinin, əlifbanın, imlanın islahı haqqında" (Samoyloviç 1923) yazısı nəşr olunmuş və burada mühüm məqamlara toxunulmuşdur.

"Qurultaydan əvvəl də Samoyloviçin Azərbaycanla, onun alimləri ilə sıx elmi əlaqəsi olmuşdu. ... ilk növbədə B.Çobanzadə ilə əməkdaşlığı var idi. 1924-cü ildə Bakıda Azərbaycan Ölkəşünaslıq qurultayında tanış olmuşdular. 1925-ci ildə Leninqradda görüşüb Türkoloji Qurultay haqqında məsləhətləşmişdilər" (Babayev, 2006, s. 294).

I Türkoloji Qurultayın harada keçirilməsi məsələsinə də münasibət bildirən Samoyloviç 13 mart 1924-cü ildə SSRİ-nin paytaxtı olan Moskva şəhərində keçirilməsi fikrini irəli sürmüş və bildirmişdir ki, qurultaya 13 ölkədən 70 nümayəndə dəvət olunmalıdır. O, qurultayda 3 əsas

problemin - əlifba, ədəbi dil və elmi terminologiya məsələlərinin qoyulmasının tərəfdarı idi. 1925-ci ilin sonlarında qurultayın hazırlıqları ilə əlaqədər Bakıya səfər etmişdir.

A.N.Samoyloviç I Türkoloji Qurultayın 28 fevral 1926-cı il tarixli V iclasında Cəlaləddin Qorxmazovun sərdrliyi ilə "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda məruzə etmişdir. Qurultayın aktual problemlərindən biri də müasir türk dillərinin öyrənilməsi məsələsi idi. Professor B.Çobanzadə ilə A.N.Samoyloviçin çıxışları mövzu etibarilə eyniyyət təşkil etdiyi üçün bununla bağlı birgə qətnamənin qəbul edilməsi haqqında razılığa gəlinmişdir. Görkəmli tədqiqatçının yaradıcılığında türkmən və özbək dilləri, ədəbiyyatı, folkloru, etnoqrafiyası xüsusi yer tutsa da, qurultaydakı məruzəsində şimal-şərqdə yerləşən yakut xalqının dilindən tutmuş, Yenisey çayı hövzəsində, Sibirdə, Mərkəzi Asiyada, Şimali Qafqazda yaşayan bütün türk xalqları, onların dilləri, dillərin mövcud vəziyyətləri, tədqiqat istiqamətləri nəzəri cəhətdən şərh edilmiş, bu istiqamətdə tədqiqat aparan alimlərin fəaliyyəti də unudulmamışdır. Samoyloviçin vaxtilə haqqında məruzə etdiyi dillərin bəzisi bu gün ölü dil və ya yox olma təhlükəsi daşıyan türk dilləri sırasındadır (soyot dili, karaqas dili və s.). Nəzərə çatdırmaq istədiyimiz məqam odur ki, alim çıxışında bütün türk dillərini əhatə edə bilmiş, türk xalqlarının yayılma coğrafiyası, onların dilləri, dialektləri, öyrənilmə vəziyyəti haqqında bəhs etmişdir.

A.N.Samoyloviçin özünün də qeyd etdiyi kimi, qurultayda bu mövzu üzrə professor Aşmarin «Türkologiyanın keçmişi və onun hazırkı vəziyyəti haqqında bəzi məlumatlar» adlı məruzəsində türkologiyanın inkişaf tarixinə toxunduğu üçün, professor S.Y.Malov isə «Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri» adlı məruzəsində əsasən qədim türk dillərinin öyrənilməsi məsələsindən bəhs etdiyi üçün o, müasir türk dillərinin öyrənilməsi tarixi haqqında həmin dövrə qədər görülən işlərə toxunmuşdur.

Samoyloviç məruzəsinə türkologiyanın yeni dövrü üçün iki əsas şərtin olduğunu göstərməklə başlayır. Bunlardan biri kollektiv iş prinsipinin olması, digəri isə mühüm və səciyyəvi əlamət kimi türkoloji problemlərin araşdırılmasında yeni tədqiqatçıların daha fəal iştirak etməsidir. Alim təşkil olunan qurultayın əhəmiyyətini vurğulayaraq elmin yeni dövrə keçidinin bu qurultay olmadan toplanmış zəngin elmi materialların tələb olunduğu şəkildə irəliləməsinin mümkün olmayacağını göstərir. Alim məruzəsində dünya xəritəsinə müraciət etmiş və xəritə qarşısında türk xalqlarının yayılma coğrafiyası və canlı türk dillərinin öyrənilmə vəziyyətinin, türk dillərinin tədqiqi istiqamətində görülən işlərin mükəmməl təsvirini vermişdir.

Yakut dilinin və ədəbiyyatının digər türk dillərinə nisbətən daha çox tədqiq edilməsindən bəhs edən Samoyloviç türk dilləri arasında ən yaxşı qrammatika əsərlərinin onlara məxsus olduğunu və bunun akademik Bötlinq tərəfindən hazırlanan qrammatika olduğunu vurğulayır. Eyni zamanda, Ümumittifaq Elmlər Akademiyasının Leninqraddakı nəşrləri arasında yakut xalq ədəbiyyatına həsr olunmuş çoxcildlik əsərlərin, E.K.Pekarski və əməkdaşları tərəfindən hazırlanan lüğətlərin əhəmiyyətini diqqətə çatdırır. O hesab edir ki, yakut dili ilə bağlı araşdırmalar daha da dərinləşdirilməli, yakut dilinin dialekt və şivələrinin öyrənilməsi işi davam etdirilməlidir.

Tədqiqatçı Yenisey çayı hövzəsində saqaylar, kaçinlər və digər türk tayfalarından ibarət Abakan türklərinin məskunlaşma yerlərini göstərir, həm Abakan, həm də soyot türklərinin şifahi xalq ədəbiyyatı ilə bağlı materiallarının toplandığını bildirir. O, soyot dili haqqında prof. Katanovun tədqiqatlarına diqqət çəkərək onun soyot və ya uryanhay dilinin digər türk dilləri və onların dialektləri fonunda təsvirini verdiyini qeyd edir. Daha sonra 400 nəfər əhali sayı olan karaqas türk xalqı haqqında bəhs edərək dünyada bəlkə də mövcud ən kiçik türk xalqlarından biri olduğunu vurğulayır. Bu dilin dialekt materiallarının Katanov tərəfindən toplandığını xatırladır: "Bu materiallar soyotlar haqqında məlumatlarla birlikdə akademik Radlovun redaktəsi altında buraxılan "Türk tayfalarının xalq ədəbiyyatı nümunələri"nin doqquzuncu cildinə aiddir" (1926-cı il I Türkoloji Qurultayı, 2006, s. 132). Burada Katanovun araşdırdığı Sibirdə yaşayan samoyedlər, türkləşmə prosesi başa çatmamış kamasinlər, onların şivələri haqqında da materiallar öz əksini tapmışdır.

Samoyloviç Sibirin Altay ərazisində məskunlaşan altay xalqına və bir sıra kiçik türk tayfalarına diqqət çəkərək bu xalqların Radlov tərəfindən tədqiq edildiyini, Radlov tərəfindən

hazırlanan birinci cildə daxil olan Altay ədəbiyyatı ilə yanaşı, Altay dilinin qrammatikasının (kollektiv) da mövcud olduğunu göstərmişdir. Eyni zamanda Sibir hüdudlarında yaşayan baraba tatarlarının, tobol türklərinin canlı dil nümunələrinin Radlov tərəfindən türk tayfalarının xalq ədəbiyyatı nümunələri seriyasında verildiyi qeyd olunmuşdur.

Samoyloviç Mərkəzi Asiyada yaşayan qazax xalqının geniş bir ərazidə məskunlaşdığını və müasir dövrdə sayca çox olan türk xalqlarından biri kimi bu dilə türkoloqların marağının təbii olduğunu vurğulayır. O, qazax dilinin və qazax ədəbiyyatının tədqiqatçıları sırasında Radlov, Melioranski, Gibayev, qurultay iştirakçısı olan Ahmet Baytursunu göstərərək qazax ədəbiyyatının 900 çap səhifəsindən ibarət kitabın nəşr olunduğunu qeyd edir. Daha sonra Şərqdə qazaxlarla qonşuluqda yaşayan qırğız xalqının mədəni vəziyyəti türkoloqların diqqətində olsa da, bu dilin də az tədqiq olunmuş türk dilləri sırasında olduğunu göstərir. Alim qırğız dili və ədəbiyyatı ilə məşğul olan milli gənc tədqiqatçıların yetişdiyini və qırğızların "Moraz" adlı epik əsərini vurğulamağı da unutmur.

A.N.Samoyloviçin elmi yaradıcılığında özbək ədəbiyyatı, dili, folkloru və etnoqrafiyasının da xüsusi yer tutduğu məlumdur. Mərkəzi Asiyada böyük rol oynayan özbək dilinin lazımi səviyyədə tədqiq edilmədiyini bildirən alim özbək dili üzrə toplanmış materialların tədqiqatçıların sadəcə özbəklərdən toplaya bildikləri ilə məhdudlaşmadığını qeyd edir. Məruzədə həm də XVI əsrdə əhalinin sıx məskunlaşdığı ərazilərdə boş torpaqların məhdudluğu səbəbindən özbəklərin əsasən Buxara xanlığının ərazisində və Türküstanın digər bölgələrində məskunlaşmaları, eyni zamanda Xarəzm özbəklərinin şivəsinin Buxara şivəsindən fərqlənmə səbəbləri şərh olunur.

Kuen-Lun və Tyan-Şan ərazisi arasında da türk xalqları məskunlaşmış və Çin Türküstanındakı türk elementləri əsrlər boyu bir çox dəyişikliyə məruz qalmışdır. Aleksandr Nikolayeviç göstərir ki, buradakı müasir canlı şivələr uyğur yazılı abidələrindən, eyni zamanda qədim uyğur dilindən kəskin şəkildə fərqlənir. Bu şivələrin həm rus, həm də Qərbi Avropa tədqiqatçılarının diqqətini çəkdiyini göstərən alim O.Katanov, S.Y.Malov, M.Karteri tərəfindən aparılan araşdırmalarda Çin Türküstanı şivələri ilə müasir özbək şivələrinin bir-birinə bənzədiyini və onlar arasında oxşarlığın olduğunu qeyd edir.

Alimin özünün də qeyd etdiyi kimi, türkmən şivələri ilə məşğul olan azsaylı türkoloqlardan biri olaraq, Amu-Dərya sahillərində türkmən xalqının şivələrinin ən az tədqiq edilən şivələrdən olduğunu, türkmən xalq ədəibyyatı nümunələrinin çap olunmadığını nəzərə çatdırır, yazılan qrammatika kitablarının isə elmi yox, tədrisi xarakter daşıdığını qeyd edir və əsas diqqətin türkmən dialektlərinin öyrənilməsinə yönəldilməli olduğunu vurğulayır: "Türkmən dialektləri bizi, bir tərəfdən Şimali Əfqanıstan, digər tərəfdən isə Xəzər dənizi boyu İran hüdudlarına aparıb çıxarır" (1926-cı il I Türkoloji Qurultayı, 2006, s.134).

Bütün bu türk xalqları ilə yanaşı, A.N.Samoyloviç Orta Asiya türk dünyası ilə Şərqi Avropa türk dünyası arasında əlaqələndirici halqa adlandırdığı başqırd xalqı, kazan-tatarları, Volqaboyunda yaşayan çuvaş xalqı, qazax xalqının qərb qanadı olan noqay xalqı, Şimali Qafqazdakı qaraçay-balkar xalqı və Dağıstan türkləri olan qumuq və digər türk xalqlarının dillərinin, danışıq dili və xalq ədəbiyyatının öyrənilmə vəziyyəti haqqında məlumat verərək bu dillərin tədqiqatçılarına da diqqət çəkmişdir. Samoyloviçin çuvaş dili və tədqiqatçıları ilə fikri maraq doğurur: "Əgər yakutların öz Pekarskiləri vardırsa, çuvaşların da öz Aşmarinləri var. Aşmarin təkcə çuvaş xalqının qrammatikasını çap etdirməyib, həm də nəhəng, lakin təəssüf ki, indiyədək çap olunmayan çuvaş lüğəti də toplayıb" (1926-cı il I Türkoloji Qurultayı, 2006, s.135). Haşiyə kimi qeyd etmək istərdik ki, 1928-1950-ci illərdə N.İ.Aşmarinin 17 cilddən ibarət "Çuvaş dilinin lüğəti" çap olunmuşdur. Bu lüğətlərdən N.İ.Aşmarin özü beş cild hazırlamağa müəvəffəq olmuşdur. O, lüğətdə leksik vahidlərlə yanaşı, həm də çuvaş xalqının çoxəsrlik tarixinin, mədəniyyətinin və məişətinin, dünyagörüşünün, şifahi xalq ədəbiyyatının irsini əks etdirmişdir. Aşmarinin vəfatından sonra bu işi N.A.Rezyukov davam etdirmişdir.

A.N.Samoyloviç macar alimi professor G. Messaroşun mühüm xidmətlərini xüsusi qeyd edərək demişdir: "…Bu gün bu tarixi qurultayımızda bizə başqırd dilinin öyrənilməsində iştirak edən alimlərdən birini – macar alimi professor dr. Messaroşu görmək səadəti nəsib olub. Onun digər

bir həmyerlisi – macar türkoloqu Prole də başqırd dialektini öyrənib və nəticədə hər iki alimin əsərləri Macarıstan mətbuatında işıq üzü görüb. …Aşmarindən başqa çuvaş dilinin hərtərəfli və ciddi tədqiqi ilə yenə Messaroş məşğul olmuş, ən yeni dövrdə isə fin türkoloqu Ramstedt və leninqradlı altayşünas Poppe çuvaş dilinə xüsusi diqqət yetirmişdir" (1926-cı il I Türkoloji Qurultayı, 2006, s.135).

Azərbaycan türklərinin yerləşmə arealı, Azərbaycan dili və onun dialekt xüsusiyyətlərinin tədqiqi məsələləri də Samoyloviçin məruzəsində öz əksini tapmışdır. Alim Azərbaycan türklərinin və İranda yaşayan türklərin dil baxımından intensiv şəkildə tədqiq olunmadığını qeyd edir. Buna baxmayaraq əməli qrammatika ilə yanaşı, alman alimi K.Foyun bu istiqamətdəki tədiqatlarını, onun İran Azərbaycanından olan tələbələrdən məlumat topladığını yazır və Azərbaycan dilinin dialektoloji xüsusiyyətlərinin öyrənilməsi məhdud materiallar əsasında aparıldığı üçün dilin mövcud vəziyyəti haqqında təsəvvür yaratmağa imkan vermədiyini vurğulayır. Alim N.İ.Aşmarinin Azərbaycan dilinin dialekt və şivələrinin öyrənilməsindəki fəaliyyətini də yüksək qiymətləndirir: "Aşmarinin gərək ki, bu gün çapdan çıxan işi buradakı şivələrin zənginliyini nümayiş etdirir ki, onların tədqiqi türkoloqlara çox zəngin materiallar vəd edir" (1926-cı il I Türkoloji Qurultayı, 2006, s. 137).

Nəhayət, məruzəsinin sonunda A.N.Samoyloviç türkologiyanın qədəm qoyduğu yeni dövrdə türk dillərinin tədqiqi işində bir sıra mühüm vəzifələr sadalayır:

1. Hər bir respublikada müasir türk dillərini (dialektlərini) öyrənən mərkəzlər yaradılmalıdır.
2. Türk dialektlərinin öyrənilməsi dərindən və təfsilatı ilə aparılmalı, şivələrin qonşu dillərə, qonşu dillərin bu şivələrə qarşılıqlı təsiri nəzərə alınmalıdır.
3. Yerli əməkdaşlar canlı türk şivələrini öyrənməli, xalq ədəbiyyatına dair zəngin materiallar toplanmalı, hər bir şivənin fonetika, morfologiya və sintaksisinin daxil olduğu təsviri qrammatika istiqamətində iş aparılmalıdır.
4. Ayrı-ayrı lüğətlər, şivə və ləhcələri öyrənmək əsasında ümumi terminologiya, ümumtürk lüğəti tərtib edilməlidir.
5. Kollektiv iş prinsipinə əsaslanılmalıdır.
6. Beynəlxalq əməkdaşlığa əsaslanmalı, tədqiqatlar həmin şivələrin tarixi-müqayisəli qrammatika əsasında ətraflı şəkildə tədqiqi zəminində aparılmalıdır.
7. Beynəlxalq zəmində türk xalqlarının və onların dillərinin tədqiqinə dair xüsusi biblioqrafiya toplanmalı və hazırlanmalıdır.

A.N.Samoyloviç qurultayda ortaq türk dili məsələsinə də münasibət bildirmiş və ilk növbədə bu dilin bir neçə dialektə bölündüyünü qeyd etmişdir. Bir tərəfdən çuvaş dilinin, digər tərəfdən isə yakut dilinin təşəkkülünü vurğulayan alim türk dilindən fərqli olan bu iki dil nəzərə alınmazsa, digər türk dillərinin xüsusi bir dili deyil, yalnız dialekt və alt dialektləri təmsil etdiyini göstərir. Başqa sözlə desək, Samoyloviç nəzərə çatdırır ki, çuvaş və yakut dili istisna olmaqla, digər türk dilləri bir dilin dialekt və şivələri hesab oluna bilər: "Başqa dil ailələri ilə müqayisədə türk dilinin dialekt və şivələri o qədər yaxındır ki, hətta slavyan və german qrupları arasında belə yaxınlıq yoxdur" (1926-cı il I Türkoloji Qurultayı, 2006, s.294). İsmayıl bəy Qaspiralının özü üçün əhəmiyyətli hesab etdiyi bu məsələni A.N.Samoyloviç onunla müzakirə etmək imkanı əldə etdiyini deyərək təkcə mövcud ədəbi dillərin yaxınlaşmasının deyil, həm də danışıq dili dialektlərinin yaxınlaşmasının mühüm məsələ olduğunu qeyd etmişdir.

Ədəbi dilin işlənib hazırlanmasına pessimistcəsinə baxılması üçün əsas olmadığını vurğulayan Samoyloviç yazırdı: "Dil ictimai hadisə kimi ünsiyyət vasitəsi olduğundan, təbii ki, onun birləşməsi mütləq zəruri və arzu olunan bir hadisə olacaqdır. Həqiqətən də, ayrı-ayrı türk xalqlarının iqtisadi zəmində yaxınlaşması və ünsiyyət yollarının və ünsiyyət üsullarının artması və təkmilləşməsi nəticəsində, ayrı-ayrı şəxslər tərəfindən heç bir zorakılığa məruz qalmadan öz aralarında daim artan ədəbiyyat mübadiləsi nəticəsində təkcə ədəbi dilin deyil, həm də danışıq dillərinin bir-birinə uyğunlaşması və yaxınlaşması faktının şahidi oluruq" (Pervıy vsesoyuznıy tyurkologiçeskiy syezd, 1926, s. 329). Bu fikrə münasibət bildirən Turyakulov məsələnin əməli vəzifələrlə üzvi şəkildə bağlı olduğunu qeyd edir və Samoyloviçlə eyni mövqe tutur. O, dili

laboratoriya şəraitində deyil, tarixi prosesin, təmas və əlaqələrin üsullarının məhsulu kimi dəyərləndirir, Azərbaycan, Anadolu və türkmən dillərinin birləşdirilməsinin mümkünlüyünü qeyd edən alimlərə haqq qazandırır.

A.N. Samoyloviçlə bağlı tədqiqatlar

A.N. Samoyloviçlə bağlı tədqiqatlar ilk dəfə Rusiyada 1960-cı illərdə başlamışdır. A.N.Samoyloviçlə əlaqədar mühüm araşdırmalar ilk növbədə F.D.Aşnin tərəfindən aparılmışdır. Belə ki, ilk nəşr kimi 1963-cü ildə F.D.Aşninin"Aleksandr Nikolayeviç Samoyloviç (1880–1938)" və 1966-cı ildə L.V.Dmitrievaın "A.N.Samoyloviçin əlyazma irsinin təsviri üçün materiallar" adlı əsərləri diqqət çəkir. 1970-ci illərdən başlayaraq bu tədqqiqatların sayının daha çox olduğu müşahidə edilir. 1973-cü ildə Leninqradda (Sankt-Peterburq) keçirilən VI Türkoloji konfrans və 1974-cü ildə nəşr olunan "Türkoloji məcmuə. 1974" (Тюркологический сборник, 1974) akademik A.N.Samoyloviçin əziz xatirəsinə həsr olunmuşdur. Türkoloji məcmuədə F.D.Aşnin "Aleksandr Nikolayeviç Samoyloviç 1880-1938", V.D.Arakin "A. N. Samoyloviçin tədqiqatlarında müqayisəli tarixi metod", L.V.Dmitrieva "A.N.Samoyloviçin əlyazma irsinin təsviri üçün materiallar", S.M.Abromov "A.N.Samoyloviç - etnoqraf", A.N. Kononov "Türk xalqları arasında əsas istiqamətlərin müəyyən edilməsi üsulları və terminləri" və s. yazılarla çıxış etmişlər.

«Советская тюркология» (Sovet türkologiyası) jurnalının 1973-cü ildə çıxan nömrələrində Samoyloviçin çoxşaxəli yaradıcılığına həsr olunmuş məşhur Sovet türkoloqlarının – N.A.Baskakovun "A.N. Samoyloviç V.A. Qordlevskiyə məktublarında", B.Çarıyarov və P.Əzimovun "A.N. Samoyloviç və türkmən dilçiliyi", A.N.Kononovun "A.N.Samoyloviç – qrammatist", K.M.Musayevin "A.N. Samoyloviç və türk dillərinin müqayisəli leksikologiyası", D.M.Nasilovun "A.N. Samoyloviç türk dillərinin təsnifatı haqqında", D.Nurəliyevin "A.N.Samoyloviç - türk ədəbiyyatı və folklorunun tədqiqatçısı", E.İ.Fazılovun "A.N. Samoyloviç - orta əsrlərə aid türk abidələrinin tədqiqatçısı" kimi yazıları dərc olunmuşdur. Bir haşiyəni qeyd edək ki, K.M.Musayevin "A.N. Samoyloviç və türk dillərinin müqayisəli leksikologiyası" adlı məqaləsi tərəfimizdən rus dilindən Azərbaycan və türk dillərinə tərcümə olunaraq nəşr olunmuşdur.

F.D.Aşnin, V.M.Alpatov və D.M.Nasilovun "Repressiyaya uğramış türkologiya" (2002) kitabı sovet türkologiyası tarixinin qaranlıq dövrünə həsr olunmuşdur (Aşnin, Alpatov, Nasilov, 2002). Əsərdə prosesin necə baş verdiyi haqqında bəhs olunur. Burada müxtəlif türk xalqlarının bir çox görkəmli elm və mədəniyyət xadimlərinə qarşı aparılan istintaq işlərinə istinad edilir. Rusiya, Azərbaycan, Qazaxıstan və Qırğızıstan təhlükəsizlik orqanlarının arxiv materialları əsasında ilk dəfə olaraq 1937-1939-cu illərin, bəzən hətta əvvəlki illərin istintaq işləri elmi dövriyyəyə daxil edilmişdir. Əsərdə A.N. Samoyloviç də ölüm səbəbi araşdırılan ziyalılar sırasındadır.

A.N.Samoyloviçin yaradıcılığına işıq tutan və onunla bağlı tədqiqat aparan tədqiqatçılardan biri Q.F.Blaqova olmuşdur. Q.F.Blaqova da Samoyloviç haqqında çoxsaylı məqalələrin müəllifidir. O, ixtisasca dilçi olduğu üçün Samoyloviçin daha çox dilçilik araşdırmaları üzərində dayanmışdır. 2022-ci ildə "Aleksandr Nikolayeviç Samoyloviç ve Türkologiya" mövzusunda fəlsəfə doktorluğu dissertasiyasını müdafiə edən Sərdar Karaca məqalələrinin birində bununla bağlı yazır: "Lakin Blaqovanın dilçi olması və xüsusilə Orta Asiya türk dillərinə yönəlməsi onun Samoyloviçlə bağlı araşdırmalarının da bu istiqamətdə aparılmasına səbəb olmuş, nəticədə Samoyloviçin xüsusən folklor (xalq ədəbiyyatı) tədqiqatları bir qədər diqqətdən kənarda qalmışdır" (Karaca, 2024, s.166). Halbuki Samoyloviç öz əsərlərində təkcə dil problemlərinə deyil, həm də mədəni, ədəbi və tarixi kontekstə diqqət yetirmişdir. Q.F.Blaqova və D.M.Nasilovun "Samoyloviç A.N. Türk dilçiliyi. Filologiya. Runika" (2005), Q.F.Blaqovanın "Aleksandr Nikolayeviç Samoyloviç: elmi yazışmalar. Bioqrafiya" (2008) əsəri, "XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Rusiyada türkologiyanın tarixi" (2012) adlı monoqrafiyası alimin filoloji fəaliyyətini ehtiva edən əsərlər sırasındadır.

Bütün bunlarla yanaşı, Q.F.Blaqovanın "Rusiyada türkologiyanın tarixi (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri)" (2012) monoqrafiyasında (Blaqova 2012) "A.N. Samoyloviç türk dilçiliyinin tarixşünası kimi" adlı hissə yer almışdır. Əsərdə müəllif A.N. Samoyloviçin tarixşünaslıqla bağlı əsərlərinin icmalını ilk dəfə toplu şəkildə təqdim etmişdir. Eyni zamanda əsərə

A.N. Samoyloviç tərəfindən gənclik illərində tərtib edilmiş "Rusiyada nəşr olunmuş müxtəlif türk dillərinin qrammatikalarının icmalı" adlı bölmə də daxil edilmişdir. Burada XX əsrin 20-ci illərində A.N.Samoyloviç tərəfindən irəli sürülən türk dillərinin öyrənilməsi tarixinin dövrləşdirilməsi öz əksini tapmışdır. Bu hissə ilk dəfə 2005-ci ildə G.F.Blaqova tərəfindən aşkar edilərək nəşr olunmuşdur.

Yeri gəlmişkən qeyd edək ki, A.N.Samoyloviçin dil quruculuğunda fəaliyyəti danılmazdır. Belə ki, o, latın əlifbasına əsaslanan türk dilləri üçün yeni yazı sisteminin nəzəri əsaslarının işlənib hazırlanmasında, ədəbi dillərin təşəkkülü və inkişafı problemlərinin həllində, yeni terminologiyanın formalaşmasında, türkoloji tədqiqat müəssisələrinin yaradılmasında və türkoloq kadrların hazırlanmasında da fəal iştirak etmişdir.

A.N. Samoyloviç türkologiyada yalnız araşdırmaları ilə deyil, həm də özündən sonra qoyub getdiyi davamçıları, tələbələri ilə də iz buraxmışdır. Tükologiyada ciddi tədqiqatları ilə seçilən akademik A. N. Kononov, akademik K.K.Yudaxin, akademik S.K.Kenesbayev prof. V.D.Arakin, prof. A.K.Borovkov, N.P.Dırenkova, A.A.Popov, U.Tursunov və digər məşhur türkoloqlar onun yetirmələri sırasındadır.

Türk dillərinin təsnifi məsələsi

A.N.Samoyloviçin həyat və yaradıcılığını geniş şəkildə araşdıran F.D.Aşnin yazır: "A.N.Samoyloviç əsasən kiçik formalı əsərlər - kiçik həcmli məqalələr yazan, lakin bütövlükdə götürüldükdə türkologiyanın ən müxtəlif sahələrini - qədim türk abidələrindən tutmuş müasir ədəbi dillərə, türkdilli ədəbiyyatın ilk elementlərindən tutmuş müasir şair və nasirlərə qədər olan ən müxtəlif sahələri əhatə edən alim tipinə mənsub idi" (Aşnin, 1978, s. 13).

Alimin əsərlərinin əksəriyyəti Özbəkistan, Azərbaycan, Krım, Türkiyə və Türkmənistanı əhatə edən geniş coğrafiyada aparılan tədqiqatlara əsaslanır. A.N.Samoyloviç "Baxçasaray müğənnisi, şair, salnaməçi və meteoroloq Həbibullah-Kərəm" (1913), "Abdu-s-Səttar-Qazi. Tekinlərin döyüşlərindən bəhs edən hekayələr kitabı" (1914), "Qazax-qırğız evli qadının dilində qadağan olunmuş sözlər" (1915), "Qısa Krım tatar qrammatikası cəhdi" (1916), "Osmanlı türk dilinin praktiki öyrənilməsi üçün bələdçi" (1917), "İmperator Baburun şeirlər toplusu" (1917), "Türk xalqlarının ədəbiyyatı" (1920), Türk dillərinin təsnifatına bəzi əlavələr (1922), "Əfqanıstan əhalisinin tərkibində türk və monqol elementləri" (1924), "Yeni türk əlifbası (Azərbaycandan bir məktub)" (1924), "Müasir Osmanlı türkcəsinin qısa tədris qrammatikası" (1925), "Qafqaz və Türk Dünyası" (1926), "Türk xalqları arasında on iki illik heyvan dövrü məsələsinə dair" (1927), "Türkmən ədəbiyyatı tarixinə dair oçerklər" (1929), "Orta Asiya türk xalqları ədəbiyyatında İran qəhrəmanlıq dastanı" (1934), "Hoton türkləri və dilləri" (1934) və s. kimi əsərlərin müəllifidir.

Məlumdur ki, türk dilləri müxtəlif dövrlərdə müxtəlif türkoloqlar tərəfindən təsnif edilmişdir. Bu təsnifatlar F.Y.Korş, İ.N.Berezin, M.Kazımbəy, V.V. Radlov, A.N.Samoyloviç, S.E.Malov, V.A.Boqoroditski, N.A.Baskakov, L.Ligeti, R.Arat, G.Dörfer, F.Zeynalov və digər alimlər tərəfindən aparılmışdır. Türk dillərinin bölgüsü, əsasən, tarixi-coğrafi əlamətlərin, dillərin linqvistik yaxınlığının – leksik, fonetik, qrammatik xüsusiyyətlərinin, tarixilik prinsipinin nəzərə alınması ilə təsnif olunmuşdur. Türk dillərinin ilk elmi təsnifatlarından biri də rus türkoloqu A.N.Samoyloviçə məxsusdur. V.V.Radlov və F.Y.Korş tərəfindən linqvistik əsaslarla aparılmış təsnifatlarının tənqidi nəticəsi kimi meydana gələn A.N.Samoyloviçin apardığı türk dillərinin təsnifi türkologiyada böyük əhəmiyyət kəsb edir. Özü də bu haqda yazır: "Mən bu əsərdə türk dillərinin mövcud təsnifatlarını yenisi ilə əvəz etməməklə, tamamlamağa çalışaraq, müxtəlif alimlər tərəfindən qəbul edilmiş türk dilləri sisteminin bölmələrinin nomenklaturasında müəyyən dəyişikliklər etməyə özümə icazə verirəm" (Samoyloviç, 1922, s. 5). A.N.Samoyloviç 1922-ci ildə Petroqradda (Leninqrad) nəşr etdirdiyi "Türk dillərinin təsnifatına bəzi əlavələr" adlı əsərində türk dillərini fonetik xüsusiyyətlərinə, səs əlamətlərinə əsaslanaraq təsnif etmişdir. O əsasən "doqquz", "ayaq", "o", "dağ", "sarı", "qalan" deyə 6 türkcə leksik vahidi əsas götürərək türk dillərini aşağıdakı şəkildə 6 qrupa ayırmışdır:

1. *"R" qrupu* (Bulqar və müasir çuvaş dili); ura-azak-ayak

2. *"D" qrupu* (Uyğur, şimal-şərq). A.N.Samoyloviç prototürkdə d səsi üçün müxtəlif dialektlərdəki d, t, z və y səs qarşılıqlarına əsasən türk dialektlərini üç yarımqrupda təqdim edir: a) d-yarımqrupuna qədim Orxon-Yenisey və uyğur yazılı abidələrinin dilini və müasir soyot və ya uryanxay, karaqas, beltir, kızıl, salar dillərini (adak) – (ayaq); b) z-yarımqrupuna sarı-uyğur, şor, xakas, kamasin, saqay və s. dillərini (azak) – (ayaq); v) t-yarımqrupuna yakut dilini (atax) daxil edir. Ayaq sözü ilə yanaşı qoymaq feilini də nümunə gətirərək kod, kot, kos, koy dəyişmələrini verir.
3. *"Tau"qrupu* (Qıpçaq, şimal-qərb). Alim bu qrupa daxil olan türk dillərini və dialektərini bir-birinə olan yaxınlıqlarına görə monqol dövründən öncəki və sonrakı dillər deyə iki yarımqrupda birlədirir; a) altay (dialektləri ilə), qırğız, qumuq, qaraçay-balkar, karaim, tatar, başqırd dilləri; b) qazax, noqay və qaraqalpaq dilləri daxil edilir.
4. *"Tağlıq" qrupu* (Cağatay və cənub-şərq). Buraya Cağatay türkcəsi, Şərqi Türküstan (Sarı uyğur və salar dilləri istisna olmaqla), Qərbi Türküstan dialektləri (Xivə-Sart şivəsi istisna olmaqla), özbək şivələri (Fərqanə, Daşkənd, Səmərqənd, Buxara) aid edilir.
5. *"Tağlı" qrupu* (Qıpçaq-türkmən və ya orta qrup). Bu qrupa Xarəzm özbəklərinin şivələri daxil edilir.
6. *"Ol" qrupu* (türkmən və cənub-qərb). A.N.Samoyloviç sonuncu 6-cı qrupa Azərbaycan dili, türkmən dili, Osmanlı dili (Anadolu, Suriya, Balkan yarımadası türkləri), qaqauz dili, Krım (cənub sahili) daxil edir.

Bəkir Çobanzadə I Türkoloji Qurultayda türk dillərinin təsnifi haqqında yazır: "Bu materialların yenidən işlənməsi müqayisəli qrammatika türk şivələrinin lüğətinin yaranmasına kömək edəcək. Bunsuz türk şivələrinin qohumluğu barədə elmi baxımdan danışmaq mümkün deyil. Lakin bizim dediklərimizdən bu məsələnin tamamilə öyrənilməsi nəticəsinə də gəlmək olmaz. Əksinə əsas kimi Korş və Radlova məxus olan, Samoyloviç tərəfindən təkmilləşdirilən təsnifatı götürmək olar" (Pervıy vsesoyuznıy tyurkologiçeskiy syezd, 1926, s.100). Bu məqamda vurğulamalıyıq ki, alim öz təsnifatını yalnız bu məqaləsi ilə məhdudlaşdırmamış, sonrakı illərdə də türk dillərinin təsnifi ilə bağlı müxtəlif yazılarla çıxış etmişdi. A.N.Samoyloviçin "Türk dillərinin təsnifatına yeni əlavələr", "Mənim təsnifatımın üçüncü nəşri", "Türk xalqlarının etnoqrafik təsnifat layihəsi" kimi məruzələri bu fikri söyləməyə əsas verir.

Nəticə

I Türkoloji Qurultayda türk xalqlarının dili və ədəbiyyatı, əlifba, terminologiya, metodika, tarix, etnoqrafiya və s. kimi müxtəlif məsələlər müzakirə obyekti olsa da, əsas diqqət türk xalqlarının ortaq yazı sistemi – ortaq əlifba altında birləşməsi, eləcə də ortaq ədəbi dil yaradılmasına yönəldilmişdir. I Türkoloji Qurultayda A.N.Samoyloviç bir çox digər alimlər kimi türk xalqlarının və dillərinin tarixdəki yerini daha yaxşı başa düşmək üçün onların dərindən öyrənilməsinə və tədqiqinə ehtiyac olduğunu bildirmişdir. Qurultay təkcə Rusiyada yaşayan türkdilli xalqların deyil, və bütün türk dünyasında türkoloji problemlərin fəal tədqiqi üçün başlanğıc nöqtəsi oldu. A.N.Samoyloviç qurultaydan sonra da öz işini davam etdirərək türk dilləri, türk xalqları, onların folkloru, etnoqrafiyası haqqında əsərlər nəşr etdirməyə davam etdi. Qeyd edək ki, A.N.Samoyloviç də yeni əlifba siyasətini dəstəkləmiş, ortaq əlifba ilə yanaşı, ortaq ədəbi dil məsələsinin vacibliyini də bildirmişdir. Bunu alimin qurultayda səsləndirdiyi yuxarıda qeyd olunan fikirləri də bir daha təsdiqləyir. Bütövlükdə onun tədqiqatları türkologiyanın inkişafına mühüm təsir göstərmişdir.

A.N.Samoyloviç həm türk dili, həm də müasir türk dialektləri və türk xalqlarının tarixi, folkloru və ədəbiyyatı ilə bağlı çoxsaylı tədqiqatlar aparmışdır. Onun fəaliyyətində tarix və etnoqrafiya ilə yanaşı türk dillərinin dialekt və şivələrinin öyrənilməsinə xüsusi yer verilmiş, həmçinin dillərin tarixini öyrənmək üçün dialekt və şivələrin toplanması və müqayisə edilməsi də vacib sayılmışdır.

A.N.Samoyloviç tədqiqatlarında müqayisəli tarixi metoddan istifadə edərək, türk dillərinin mövcud təsnifatlarını yenidən nəzərdən keçirə bilmiş və türkologiyada mövcud olan bütün yeni elmi məlumatları nəzərə alaraq əhəmiyyətli dəyişikliklər və əlavələr etmişdir. Ukrayna əsilli rus türkoloqu və türkologiya elmini dünya miqyasında tanıdan alimlərdən biri olan Aleksandr

Nikolayeviç Samoyloviçin elmi irsi və türkologiya elminin inkişafına verdiyi töhfələr öz əhəmiyyətini daim saxlayacaqdır.

ƏDƏBİYYAT

1. Aşnin, F.D., Alpatov, V.M., Nasilov, D.M. (2002). *Repressirovannaya tyurkologiya*. Moskva: 296 c.
2. Aşnin F.D., Alpatov V.M. (1996). Arxivnıe dokumentı o gibeli akademika A.N.Samoyloviça // Vostok. Moskva: – № 5. s. 153–162.
3. Aşnin F.D. (1978). Aleksandr Nikolaeviç Samoyloviç 1880-1938 // Tyurkologiçeskiy sbornik. Moskva: «Nauka», s. 8-27.
4. Babayev, A. (2006). *Türksoyun birlik səsi*. Bakı: Təhsil, 364 s.
5. Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 22 oktyabr 2025-ci il.
6. Blaqova Q. F. (2012). *İstoriya tyurkologii v Rossii: История тюркологии в Россиu: (vtoraya polovina XIX - naçalo XX v.)*. Moskva: Vostoçnaya Literatura, 310 s.
7. *1926-cı il I Türkoloji Qurultayı*. (2006). (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri Nərimanoğlu K.V., Ağakişiyev Ə.). Bakı: Çinar-Çap nəşriyyatı, 570 s.
8. Karaca, S. (2024). Aleksandr N. Samoyloviç: Bir literatür değerlendirmesi // Türk Dünyası Dil ve Edebiyat Dergisi, Ankara:/ 57, s. 163-182.
9. Kononov A.N. (1973). Samoyloviç A.N. – grammatist // Sovetskaya tyurkologiya, – Baku: № 5, s. 37-48.
10. *Pervıy vsesoyuznıy tyurkologiçeskiy syezd*. 26 fevralya - 5 marta 1926 g. (1926). Stenografiçeskiy otçet. Baku, ASSR, 429 s.
11. Qasımov, C. (2019). *Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər*. Bakı: "Gənclik" nəşriyyatı, 748 s.
12. Samoyloviç, A.N. (1923). Türkoloji qurultay lazımdır: Birinci Türkoloji qurultay ərəfəsində ədəbiyyat dilinin, əlifbanın, imlanın islahı haqqında // Maarif və mədəniyyət. –№ 10, s. 19-20. (Ərəb qrafikasında)
13. Samoyloviç A.N. (1922). Nekotorie dopolneniya k klassifikatsii turetskix yazıkov. Petroqrad: Rossiyskaya gosudarstvennaya akademiçeskaya tipografiya, s. 3-15.